# PAULUN
# TİMOTEYƏ BİRİNCİ MƏKTUBU
## GİRİŞ

Gənc məsihçi Timotey Likaonyanın Listra şəhərində anadan olmuşdu. Onun atası Yunan, anası isə Yəhudi idi. Timotey müjdəçilik işində Paula köməkçi və əməkdaş oldu. Paulun *«Timoteyə Birinci Məktubu»* üç əsas məsələni həll edir.

Məktub ilk növbədə imanlı cəmiyyətində verilən yanlış təlimə qarşıdır. Bu təlim Yəhudi və Yəhudi olmayanların ideyalarının qarışığı idi. Bu yanlış təlimə görə fiziki dünya şərdir və buna əsasən bəzi yeməklərdən imtina etməklə, xüsusi gizli biliyə malik olmaqla və evlənməməklə xilasa nail olmaq olar. Məktubda həm də imanlı cəmiyyətinin idarə olunmasına və ibadətə aid təlimatlar var. Bundan əlavə, burada imanlı cəmiyyətinin rəhbərlərinin və köməkçilərinin davranışının necə olması göstərilir.

Nəhayət, Paul Timoteyə İsa Məsihin yaxşı xidmətçisi olması üçün və imanlıların müxtəlif qruplarına qarşı məsuliyyətinə aid məsləhətlər verir.

**Kitabın məzmunu:**

1:1-2 Salamlar

1:3–3:13 İmanlı cəmiyyətinin xidmətçilərinə aid təlimatlar

3:14–4:5 Möminliyin böyük sirri

4:6–6:21 Timoteyə verilən təlimat

1 *Xilaskarımız Allahın və ümidimiz olan Məsih
İsanın əmrinə görə Məsih İsanın həvarisi mən
Pauldan 2 imanda mənə əsl oğul olan Timoteyə
salam! Ata Allahdan və Rəbbimiz Məsih İsadan
sənə lütf, mərhəmət və sülh olsun!

### *Yanlış təlimlərdən çəkinin*

3 Makedoniyaya gedərkən mən səndən xahiş et-
diyim kimi Efesdə qal və bəzi insanlara əmr et ki,
yad təlim yaymasınlar, 4 əfsanə və bitməz-tükənməz
nəsil şəcərələri ilə məşğul olmasınlar. Çünki bu
şeylər Allahın niyyətinin imanla yerinə yetməsi
üçün faydalı deyil, əksinə, boş mübahisələrə səbəb
ola bilər. 5 Bu əmrin məqsədi pak ürəkdən, təmiz
vicdandan və riyasız imandan gələn məhəbbətdir.
6 Bəzi adamlar isə bunlardan azaraq boşboğazlığa
qapıldılar. 7 Qanun müəllimi olmaq istəyirlər,
amma nə söylədikləri sözləri, nə də üstündə dur-
duqları mövzuları anlayırlar.
8 Biz bilirik ki, kimsə Qanundan qanuni şəkildə
istifadə edərsə, Qanun yaxşıdır. 9 Bunu da bilirik
ki, Qanun saleh üçün deyil, qanunsuzlar və
itaətsizlər, allahsızlarla günahkarlar, müqəddəs
olmayanlar və Allahla əlaqəsi olmayanlar, ata
və analarını öldürənlər, qatillər, 10 əxlaqsızlar,
kişibazlar, adam oğruları, yalançılar, andı pozanlar
və sağlam təlimə zidd olan bütün başqaları üçün
qoyulmuşdur. 11 Bəxtiyarlıq mənbəyi olan Allahın
mənə əmanət etdiyi izzətli Müjdəyə görə bu belədir.

### *Allah mərhəmətlidir*

12 Mənə qüvvət verən Rəbbimiz Məsih İsaya şükür
edirəm ki, məni sadiq sayıb Öz xidmətinə təyin

* **1:1** Həv. 16:1

etdi. 13 *Əvvəllər Ona küfr edən, təqibçi və söyüşkən
olduğum halda mənə mərhəmət edildi. Çünki nə
etdimsə, cahillik və imansızlıq üzündən etdim.
14 Amma Rəbbimizin lütfü Məsih İsada olan iman
və məhəbbətlə birlikdə mənə bol-bol ehsan edildi.
15 Məsih İsa günahkarları xilas etmək üçün dünyaya
gəldi, bu söz etibarlı və tamamilə qəbul olunmağa
layiq sözdür. O günahkarlardan ən betəri mənəm.
16 Lakin ən betəri olduğum halda mənə buna görə
mərhəmət edildi ki, Məsih İsa mənim vasitəmlə
hədsiz səbrini göstərsin. Ona görə ki gələcəkdə
Ona iman edib əbədi həyata malik olanlara mən
nümunə olum. 17 Əsrlərin Padşahı, ölməz, görünməz
və bir olan Allaha* əbədi olaraq hörmət və izzət
olsun! Amin.

18 Oğlum Timotey, əvvəlcədən sənin haqqında
söylənən peyğəmbərlik sözlərinə əsasən bu əmri
sənə həvalə edirəm ki, bu sözlərə güvənərək yaxşı
mübarizə aparasan, 19 imana və təmiz vicdana
sarılasan. Bəziləri təmiz vicdanı rədd edərək
imanlarını qəzaya uğrayan gəmi kimi batırdılar.
20 Himeney və İsgəndər də onlardandır. Küfr
etməməyi öyrənsinlər deyə onları Şeytana təslim
etdim.

# 2

*Dua və ibadət*

1-2 Hər şeydən əvvəl xahiş edirəm: möminlik
və ləyaqətlə sakit və rahat ömür sürməyimiz
üçün, bütün insanlar, o cümlədən, padşahlar və
hakimiyyət sahibi olanların hamısı üçün yalvarış,

* **1:13** Həv. 8:3; 9:4-5 * **1:17** Allaha – bəzi əlyazmalarda müdrik Allaha.

dua, vəsatət və şükürlər edilsin. 3 Çünki bu
yaxşıdır və Xilaskarımız Allahı razı salır. 4 O bütün
insanların xilas olub həqiqəti dərk etməsini istəyir.
5 Çünki bir Allah və Allahla insanlar arasında bir
Vasitəçi vardır. O, İnsan olan Məsih İsadır. 6 O
hamını satın almaq üçün Özünü fidyə verdi və bu
da münasib vaxtda edilən şəhadətdir. 7 *Mən də
həmin şəhadətin vaizi və həvarisi təyin edildim –
yalanı deyil, həqiqəti* söyləyirəm. Başqa millətlərə
iman və həqiqət öyrədən müəllim oldum.

8 Buna görə istəyirəm ki, kişilər qəzəblənmədən,
mübahisə etmədən hər yerdə müqəddəs əllər
qaldırıb dua etsinlər, 9 *qadınlar da ədəbli görkəmlə,
abır-həya və ağıl-kamalla bəzənsinlər. Dəbdəbəli
saç düzümü ilə, qızıllarla, mirvarilərlə və yaxud
bahalı paltarlarla deyil, 10 mömin olduqlarını
bəyan edən qadınlara yaraşan tərzdə xeyirli işlərlə
bəzənmələrini istəyirəm. 11 Qadın sakitlik və tam
bir tabelik içində öyrənsin; 12 qadının öyrədib kişiyə
ağalıq etməsinə izin vermirəm, qadın sakit olsun.
13 *Çünki ilk yaradılan Adəm oldu, sonra Həvva.
14 Aldadılan da Adəm deyildi, qadın aldadılıb
əmri pozdu; 15 amma qadın doğuşla xilas olacaq,
bir şərtlə ki ağıl-kamalla imanda, məhəbbətdə və
müqəddəslikdə yaşamağa davam etsin.

# 3

### *İmanlılar cəmiyyətinin başçıları*

---

* **2:7** 2Tim. 1:11 * **2:7** Həqiqəti – bəzi əlyazmalarda Məsihdə olan həqiqəti. * **2:9** 1Pet. 3:3 * **2:13** Yar. 2:7,21-22; 3:1-6

[1] Bu söz etibarlıdır: kim cəmiyyətdə nəzarətçi
olmağa can atırsa, xeyirli iş arzu edir. [2] *Nəzarətçi
nöqsansız, tək arvadlı olaraq ona sadiq, ayıq, ağıllı-
kamallı, ədəbli, qonaqpərvər olmalı, öyrətməyi
bacarmalıdır. [3] Şərab düşkünü olmamalı; zorakı
deyil, mülayim* olmalı; davakar və pulpərəst
olmamalıdır. [4] Öz evini yaxşı idarə etməli, tam bir
ləyaqətlə uşaqlarını öz tabeliyində saxlamalıdır.
[5] Öz şəxsi evini idarə edə bilməyən Allahın
cəmiyyətinin qayğısına necə qala bilər? [6] Nəzarətçi
yeni iman etmiş adam olmamalıdır. Yoxsa
qürurlanıb iblisin uğradığı eyni mühakiməyə uğraya
bilər. [7] Kənar insanlar tərəfindən də yaxşı bir
insan kimi tanınmalıdır. Belə ki iblisin qurduğu
tora düşüb utandırılmasın.

[8] Cəmiyyət xidmətçiləri də ləyaqətli olmalıdır.
Riyakar, şərab düşkünü yaxud haqsız qazanca
həris olmamalıdır. [9] İman sirrini təmiz vicdanla
saxlamalıdırlar. [10] Onlar da əvvəlcədən sınaqdan
keçsinlər, əgər nöqsanları olmazsa, o zaman xidmət
etsinlər. [11] Qadınlar da böhtançı deyil, ləyaqətli,
ayıq və hər şeydə sadiq olmalıdırlar. [12] Xidmətçilər
tək arvadlı olaraq ona sadiq olsun, öz uşaqlarını və
evlərini yaxşı idarə etsinlər. [13] Çünki yaxşı xidmət
edənlər özləri üçün yaxşı bir mövqe və Məsih İsaya
olan imanlarında böyük cəsarət qazanırlar.

### *Böyük sirr*

[14] Tezliklə yanına gəlmək ümidi ilə bu şeyləri sənə
yazıram ki, [15] əgər geciksəm belə, sən Allahın ev

* **3:2** Titə 1:6-9 * **3:3** Mülayim – bəzi əlyazmalarda haqsız qazanca həris deyil, mülayim.

xalqı arasında necə həyat sürmək lazım olduğunu
biləsən. Bu xalq var olan Allahın cəmiyyəti,
həqiqətin dirəyi və bünövrəsidir. 16 Şübhəsiz ki,
möminliyin sirri böyükdür:
O,† cismən zühur etdi,
Ruh tərəfindən təsdiq olundu,
Mələklərə göründü,
Millətlərə vəz olundu,
Dünyada Ona iman edildi,
İzzətlə göyə çəkildi.

# 4

*İmandan dönüş*

1 Ruh aydın şəkildə deyir ki, gələcəkdə bəziləri
imandan dönəcək, aldadıcı ruhlara və cinlərin
təlimlərinə qulaq asacaqlar. 2 Bu təlimlər
yalançıların ikiüzlülüyü ilə yayılır. Onların vicdanı
sanki yanıq yarası kimi hissiyyatını itirmişdir.
3 Bu yalançılar evlənməyi qadağan edir və bəzi
yeməklərdən çəkindirirlər. Amma Allah bu
yeməkləri iman edib həqiqəti dərk edənlərin
şükürlə qəbul etməsi üçün yaradıb. 4 Çünki Allahın
yaratdığı hər şey yaxşıdır, şükürlə qəbul edilən heç
bir şey rədd edilməməlidir. 5 Çünki hər şey Allahın
kəlamı və dua ilə təqdis olur.

*Məsihin yaxşı xidmətçisi*

6 Bunları bacı-qardaşlara öyrətsən, imanın və
əməl etdiyin yaxşı təlimatın sözləri ilə qidala-
naraq Məsih İsanın yaxşı bir xidmətçisi olarsan.
7 Allahsız, axmaq qoca qarı əfsanələrindən uzaq

† **3:16** O – bəzi əlyazmalarda Allah.

dur. Mömin olmaq üçün özünü yetişdir. 8 Bədən
məşqinin az faydası olur, möminlik isə hər şey üçün
faydalıdır, çünki bunda indi və gələcək üçün həyat
vədi var. 9 Bu söz etibarlıdır və tamamilə qəbul
olunmağa layiq sözdür. 10 Ona görə də biz zəhmət
çəkir və mübarizə aparırıq.* Çünki ümidimizi bütün
insanların, xüsusən iman edənlərin Xilaskarı, var
olan Allaha bağlamışıq.
11 Bunları buyur və öyrət. 12 Gənc olduğun üçün
qoy heç kim sənə xor baxmasın. Amma sözdə,
həyat tərzində, məhəbbətdə, imanda,† paklıqda
imanlılara nümunə ol. 13 Mən gəlincə Müqəddəs
Yazıları hamıya oxumaqla, nəsihət verməklə,
təlim verməklə məşğul ol. 14 Ağsaqqallar əllərini
sənin üzərinə qoyanda sənə peyğəmbərlik sözü ilə
verilən səndə olan ruhani ənama etinasızlıq etmə.
15 Bunların hamısına səy göstərərək özünü həsr et
ki, sənin inkişafın hamıya aşkar olsun. 16 Özünə
və verdiyin təlimə diqqətli ol. Bu işlərlə məşğul
olmağa davam et. Çünki bunu etməklə həm özünü,
həm də səni dinləyənləri xilas edəcəksən.

# 5

*İmanlılar cəmiyyətində məsuliyyətlər*

1 Ağsaqqalla sərt danışma, ona ata kimi, cavan-
lara isə qardaş kimi, 2 ağbirçəklərə ana kimi, gənc
qadınlara tamamilə saf ürəklə bir bacı kimi nəsihət
ver.
3 Həqiqi dul qadınlara hörmət et. 4 Lakin əgər bir
dul qadının uşaqları ya da nəvələri varsa, bunlar

* **4:10** Mübarizə aparırıq – bəzi əlyazmalarda təhqirə dözürük.
† **4:12** İmanda – bəzi əlyazmalarda ruhda, imanda.

əvvəlcə öz ailələrinə yardım edərək möminliyi,
yaşlı ailə üzvlərinə də haqqını verməyi öyrənsinlər.
Çünki bu, Allahı razı salır. 5 Həqiqətən, dul qalıb
kimsəsiz olan qadın öz ümidini Allaha bağlamışdır,
gecə-gündüz Ona yalvarmağa və dua etməyə
davam edir. 6 Keflə yaşayan dul qadınsa yaşadığı
halda ölüdür. 7 Nöqsansız olmaqları üçün bu
əmrləri tapşır. 8 Öz yaxınlarının, xüsusən, ailə
üzvlərinin qayğısına qalmayan insan imanı inkar
etmiş və imansızdan betərdir.

9 Qoy bir dul qadının adı dullar siyahısına bu
şərtlə yazılsın: ən azı altmış yaşına çatmış, ərinə
sadiq olmuş, 10 *etdiyi yaxşı işlərlə tanınmış
olsun, məsələn, uşaqlar böyütmüş, qonaqpərvərlik
göstərmiş, müqəddəslərin ayaqlarını yumaqla
xidmət etmiş, əziyyət çəkənlərə yardım etmiş, hər
cür xeyirli işlə məşğul bir şəxs olmalıdır.

11 Altmış yaşa çatmamış dul qadınları isə
siyahıya yazma. Çünki cismani istəkləri Məsihə
bağlılıqlarına qalib gələn kimi ərə getmək istəyərlər.
12 Beləcə verdikləri ilk sözdən çıxdıqları üçün
mühakiməyə məruz qalırlar. 13 Eyni zamanda
evdən evə gəzərək tənbəlliyə öyrənərlər. Yalnız
tənbəllik deyil, lazım olmayan sözlər danışaraq
qeybət edərlər, başqalarının işlərinə burunlarını
soxarlar. 14 Beləliklə, yaşa dolmamış dul
qadınların ərə getməsini, uşaq doğmasını, evini
idarə etməsini, düşmənə heç bir böhtan atmaq
fürsətini verməməsini istəyirəm. 15 Artıq bəziləri
azıb Şeytanın ardınca getmişdir.

---

* **5:10** Qanun. 25:4; Luka 12:7

16 İmanlı bir qadının* dul qadın yaxınları varsa,
qoy onlara yardım etsin. İmanlılar cəmiyyəti belə
yükün altına girməsin ki, həqiqi dul qadınlara
yardım edə bilsin.
17 Cəmiyyəti yaxşı idarə edən ağsaqqallar,
xüsusən, vəz və təlim işində zəhmət çəkənlər
maddi və mənəvi cəhətdən təmin olunmağa layiq
görülsün. 18 *Çünki Müqəddəs Yazıda belə deyilir:
«Xırman çəkən öküzün ağzını bağlama» və «işçi öz
haqqına layiqdir». 19 *İki yaxud üç şahid olmadıqda
bir ağsaqqala qarşı olan ittihama əhəmiyyət vermə.
20 Günah işlədən ağsaqqalları hamının qarşısında
məzəmmət et ki, digərləri də günah işlətməkdən
qorxsun. 21 Allahın, Məsih İsanın və seçilmiş
mələklərin önündə sənin öhdənə qoyuram ki,
ayrı-seçkilik salmadan, tərəfkeşlik etmədən bu
təlimatlara riayət edəsən. 22 Heç kimin üzərinə
tələsərək əl qoyma, başqalarının günahlarına şərik
olma, özünü pak saxla.
23 Yalnız su içməkdən vaz keç; mədənə və tez-tez
baş verən xəstəliklərinə görə bir az şərab da iç.
24 Bəzi insanların günahları mühakiməyə
düşəndən əvvəl də bəllidir, digərlərininki isə
sonradan ortaya çıxar. 25 Beləcə yaxşı işlər də
qabaqcadan bəllidir, bəlli olmayanlar da gizli qala
bilməyəcək.

# 6

1 Qul boyunduruğu altında olanların hamısı öz
ağalarını tam hörmətə layiq saysınlar ki, Allahın

* **5:16** Qadının – bəzi əlyazmalarda kişinin yaxud da qadının.
* **5:18** Qanun. 25:4; Mat. 10:10; Luka 10:7 * **5:19** Qanun. 17:6; 19:15

adına və təliminə küfr söylənməsin. 2 Ağaları
iman etmiş olanlarsa qardaş olduğu üçün ağalarına
xor baxmasınlar. Əksinə, onlara daha yaxşı qul-
luq etsinlər. Çünki bu qulluqdan faydalananlar
sevdikləri imanlılardır.
Bu şeyləri öyrət və nəsihət ver.

*Allah yoluna bağlılıq*

3 Kim yad təlimlər yayıb Rəbbimiz İsa Məsihin
sağlam sözləri ilə və möminliyə uyğun təlimlə razı
deyilsə, 4 o adam qürurlanıb heç bir şey dərk etmir,
lakin mübahisə və sözlərin mənası barədə dava
yaratmaq xəstəliyinə tutulub. Bunların nəticəsi
paxıllıq, münaqişə, böhtançılıq və bədgümanlıqdır;
5 pozğun düşüncəli, həqiqətdən məhrum, möminliyi
qazanc mənbəyi kimi zənn edən adamların
fasiləsiz mübahisələridir.*
6 Əlindəki ilə kifayətlənərək mömin olmaqsa
böyük qazanc mənbəyidir. 7 Çünki dünyaya heç
bir şey gətirməmişik və oradan heç bir şey də
götürə bilmərik. 8 Yeməyimiz və paltarımız
varsa, bunlarla kifayətlənirik. 9 Zəngin olmaq
istəyənlərsə sınağa və tora düşərlər; insanı məhvə
və həlaka aparan bir çox axmaq və ziyanverici
ehtiraslara batırlar. 10 Çünki hər cür pisliyin kökü
pulpərəstlikdir. Kimlərsə bu həvəslə imandan
azıb öz-özlərinə sanki bıçaq soxmuş kimi çox əzab
verdilər.
11 Amma sən, ey Allah adamı, bu şeylərdən
qaç. Salehliyin, möminliyin, imanın, məhəbbətin,
dözümün, həlimliyin ardınca get. 12 İman uğrunda

* **6:5** Mübahisələridir – bəzi əlyazmalarda mübahisələridir. Belə adamlardan uzaq ol.

yaxşı mübarizə apar. Əbədi həyatı bərk tut;
bunun üçün çağırıldın və yaxşı əqidəni bir çox
şahid qarşısında iqrar etdin. 13 *Hər şeyə həyat
verən Allahın və Ponti Pilatın önündə öz yaxşı
əqidəsinə şəhadət edən Məsih İsanın hüzurunda
sənə tapşırıram ki, 14 Rəbbimiz İsa Məsihin
zühurunadək Allahın əmrinə ləkəsiz və nöqsansız
riayət et. 15 Allah Onu Öz vaxtında zahir edəcək. O,
bəxtiyarlıq mənbəyi olan tək Hökmdar, şahların Şahı
və ağaların Ağasıdır. 16 Yeganə ölməzliyə malik olan,
əlçatmaz nurda yaşayan Odur. Onu insanlardan
heç kəs görməyib və görə də bilməz. Ona izzət və
əbədi qüdrət olsun. Amin.

17 Bu dövrdə varlı olanlara buyur ki, təkəbbürlü
olmasınlar və gəldi-gedər var-dövlətə yox, zövq al-
mağımız üçün bizə hər şeyi bol-bol verən Allaha
ümid bəsləsinlər. 18 Xeyirxahlıq göstərsinlər, yaxşı
işlərlə zəngin, əliaçıq olub öz malını başqaları ilə
bölüşsünlər. 19 Beləliklə, gələcək üçün özlərinə
sağlam təməl olacaq bir xəzinə toplasınlar. Yəni
həqiqi həyatı† bərk tutsunlar.

20 Ey Timotey, sənə verilən əmanəti qoru! Al-
lahsız boşboğazlıqdan və yalan yerə «bilik» adlanan
şeyin zidd fikirlərindən uzaq dur. 21 Bəziləri bu
biliyə sahib olduqlarını iddia edərək imandan
azdılar.

Sizə lütf olsun!

---

* **6:13** Yəh. 18:37 † **6:19** Həqiqi həyatı – bəzi əlyazmalarda əbədi həyatı.

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http://creativecommons.org/licenses/by-nc-nd/3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985